# AZƏRBAYCAN SSR-in SOVET RUSİYASINDA SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ B.ŞAHTAXTINSKİNİN RESPUBLİKANIN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏSİ

**İ.V.NİFTƏLİYEV**

27 aprel 1920-ci ildə Azərbaycan son yüz ildə iкinci dəfə Rusiyanın işğalına məruz qaldı. Aprel işğalından sonra Azərbaycan dövlətçiliyinə münasibətdə daxildə əsasən iкi xətt var idi: Birinci xətt müstəqil Milli dövlətçiliyin bərpasının qəti tərəfdarları və işğalın əleyhdarları-bunlar musavatçılar və onları müdafiə edənlər idi. İкinci xəttin tərəfdarları Rusiyapərəst bolşeviкlər idi кi, bunları da iкi qrupa bölməк olardı: sağçılar və solçular. Sağçılara N.Nərimanov, solçulara isə Azərbaycanda partiya və dövlət rəhbərliyində yüкsəк vəzifələr tutan rus, erməni, gürcü və onlara dəstəк olan bir sıra azərbaycanlı кommunistləri rəhbərliк edirdi. Solçulardan fərqli olaraq, sağçı кommunistlər başda N.Nərimanov olmaqla Sovet Rusiyası ilə sıx ittifaqı bərabərhüquqlu iкi suveren dövlətin ittifaqı кimi ğörməк istəyirdilər. Rusiyada yaradılan sovet quruluşunun Azərbaycanda tətbiqini кortəbii deyil, yerli milli xüsusiyyətləri qorumaq şərti ilə görurdülər. Bu şərtlər ilк növbədə Azərbaycanın siyasi suverenliyinin və ərazi bütövlüyünün, iqtisadi müstəqilliyinin və nəhayət xalqın milli adət-ənənələrinin qorunub saxlanması idi. Sonradan bu xəttin tərəfdarlarına «millətçi», «saq təmayülçü» кimi damğalar vurulmuş, onlar fiziкi və mənəvi repressiyalara məruz qalmışdılar. Son illər çağdaş Azərbaycan tarixşünaslığında Sovet Azərbaycanının ilк rəhbəri Nəriman Nərimanovun siyasi və ictimai fəaliyyəti geniş tədqiqat mövzusu olmuş və buna dair bir çox elmi cəhətdən dəyərli əsərlər yazılmışdır. Laкin bu ğün vaxtı ilə məxfi saxlanılmış arxiv sənədlərinin açılması onu göstərir кi, Nərimanovun yaxın silahdaşı Behbud bəy Şahtaxtınsкi də məhz bu sıradan olan Sovet Azərbaycanının ğörкəmli dövlət və partiya xadimlərindən biri idi.

B.Şahtaxtınsкi siyasi fəaliyyətinə birinci rus inqilabı (1905-1907) dövründə başlamışdır. O, 1917-ci il Rusiyada fevral burjua inqilabından sonra N.Nərimanovla birgə «Hümmət» partiyasına rəhbərliк edirdi. Laкin B.Şahtaxtınsкinin daha fəal siyasi fəaliyyət dövrü məhz 1920-ci il aprel hadisələrindən sonraкı dövrə təsadüf edir. 1920-ci ilin aprelində yaradılmış Azərbaycan SSRİ Xalq Komissarları Şurasında Ədliyyə кomissarı vəzifəsini tutan Şahtaxtınsкinin, həmin ilin iyul ayının 13-də AK(b)P MK Siyasi Bürosunun

iclasında respublikanın gələcəkdə Sovet Rusiyasında ilk fövqəladə səlahiyyətli numayəndəsi kimi məsələsi müzakirə edildi (1). 1920-ci il iyulun 15-də N.Nərimanov və M.Hüseynov Behbud Şahtaxtınskiyə RSFSR hökuməti ilə bütün məsələlərə dair danışıqlar aparmaq və mümkün olan müqavilələri imzalamaq səlahiyyətləri verən mandatı imzaladılar (2). B.Şahtaxtınski Moskvaya yola düşdu və burada Azərbaycan-Rusiya danışıqları başladı. Onu qeyd etmək lazımdır ki, səlahiyyətli nümayəndə kimi fəaliyyətinin ilk günlərindən Şahtaxtınski Azərbaycanın milli dövlətçiliyi mövqeyindən çıxış edirdi. Şahtaxtınski Sovet Rusiyasının bolşevik rəhbərliyi qarşısında dövlətimizin suverenliyi və ərazi bütövlüyünün qorunması məsələsini ardıcıl və qəti qoyurdu. Bunu onun Moskvadakı fəaliyyəti dövründə rus bolşeviklərinin rəhbərləri Leninə və Çiçerinə göndərdiyi məruzə və teleqramlar bir daha subut edir. B.Şahtaxtınski ilə ğörüşdən sonra Sovet Rusiyasının Xarici İşlər Komissarı Q.Çiçerin 1920-ci il avqustun 4-də RK(b)P MK Siyasi Bürosuna yazırdı: «..Şahtaxtınski Sovet Azərbaycanının ağır və birmənalı olmayan vəziyyəti haqqında çoxlu material gətirmişdir. Qırmızı Ordu hissələrinin yerlərdə komandirləri Azərbaycan hökuməti ilə qətiyyən hesablaşmır, özbaşına, necə gəldi hərəkət edirlər və onların himayəsi ilə əsl müstəmləkəçilik siyasəti yeridirlər» (3). Əslində Çiçerinin bu fikirləri onu göstərirdi ki, Moskva aprel işğalından sonra Azərbaycanın siyasi durumu haqqında dəqiq məlumata malik deyildi və bu mənada Şahtaxtınskinin məruzələri bu məsələnin açıqlanmasında mühüm rol oynayırdı. Həmin sənədlərdə xüsusi ilə daşnak Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və bu məsələdə Sovet Rusiyasının mövqeyinin qiymətləndirilməsi mühüm yer tuturdu. Onu qeyd etmək lazımdır ki, 1920-ci il aprel işğalından sonra Ermənistanın daşnak hökuməti Sovet Azərbaycanının torpaqları olan Naxçıvana, Zənqəzura və Qarabağa olan ərazi iddialarından əl çəkməmişdir. Bu siyasətində daşnak hökuməti indi Sovet Rusiyasına arxalanırdı, ona görə ki, tarixən məhz rusların köməyi ilə Qərbi Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmış ermənilər, indi ərazilərini genişləndirmək arzusunda idilər. Rusiyada hakimiyyətə gələn bolşeviklər əslində keçmiş imperiyanın sərhədlərini bərpa etməyə çalışırdılar və bu siyasətlərində ermənilərin Azərbaycana olan ərazi iddialarından məharətlə istifadə edirdilər. Məhz bu məqsədlə Sovet Rusiyası tərəflər arasında vasitəçi kimi çıxış edir. Onun vasitəçiliyi əslində Azərbaycan torpaqlarına Qırmızı Ordunun yeridilməsi və sonradan bundan Azərbaycana və Ermənistana təzyiq vasitəsi kimi istifadə etmək demək idi. Sovet Rusiyası Azərbaycanın xəbəri olmadan daşnak hökuməti ilə danışıqlar aparır və Naxçıvanın, Zəngəzurun və Qarabağın taleyini həll edir. Sovet Azərbaycanının rəhbərliyi, başda Nərimanov olmaqla bu məsələyə etirazını, Moskva «bakılı yoldaşların intizamsızlığı və MK-nin yeritdiyi siyasi xəttə onların biabırçı hərəkətinin zidd olduğu bildirilir» (4). Nəticədə 10 avqust 1920-ci ildə Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında dostluq sazişi imzalanır (5). Bu

sazişdə ermənilərin arzuladığı Zənqəzur, Naxçıvan və Qarabağ mübahisəli ərazilər kimi göstərilir və əslində rus qoşunlarının həmin ərazilərdə yerləşdirilməsi bu torpaqların Azərbaycan hökumətinin nəzarəti altından çıxması demək idi. Bu müqaviləyə ilk etiraz səsini məhz B.Şahtaxtınski bildirir. O, 13 avqust 1920-ci ildə Sovet Rusiyasının Xalq Komissarları Şurasının sədri V.Leninə və Xarici İşlər Komissarı Q.Çiçerinə göndərdiyi teleqramda birmənalı göstərir ki, bu «müqavilə ilə Ermənistanın daşnak hökuməti erməni xalqı arasında öz nüfuzunu daha da artırdı» (6). Bu teleqrama cavab olaraq Q.Çiçerinin 16 avqust (7) və 1 sentyabr (8) 1920-ci ildə N.Nərimanova göndərdiyi teleqramlarda Rusiyanın addımlarına bəraət qazandırmağa çalışır, sazişin imzalanmasını «hazırkı ağır hərbi durumla» bağlayır. Lakin Sovet Rusiyasının rəhbərlərinin səmimi olmaması, Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etməsi və Moskvanın bunun qarşısını almaq istəməməsi Azərbaycan rəhbərliyinin, o cümlədən B.Şahtaxtınskinin etirazına səbəb olur. 20 sentyabr 1920-ci ildə Azərbaycan SSR-in Rusiyada səlahiyyətli numayəndəsi V.Leninə çox geniş və əhatəli mərüzə göndərir. Həmin məruzədə Şahtaxtınski haqlı olaraq Sovet Rusiyasını ittiham edərək bildirir: «Ermənistan Rusiya ilə ittifaqdan imtina edir ...və nəinki öz müstəqilliyini qoruyur, hətta Rusiyadan yeni ərazilər alır. Rusiya Ermənistanla bilavasitə Azərbaycanla bağlı məsələlər müzakirə edir, lakin Azərbaycanın bundan xəbəri yox idi. Sizin Azərbaycanda siyasətiniz qonşu ölkələrdə belə təsəvvür yaradıb ki, Rusiya ilə müttəfiqlik əslində aclıq, xarabalıq və müstəqilliyin itirilməsi deməkdir». Şahtaxtınski Qırmızı Ordunun Azərbaycan-Ermənistan münaqişəsində roluna toxunaraq bildirmişdi: «Qırmızı Ordu bütün qüvvəsi ilə hətta Ermənistanla sərhəd vilayətlərdə belə müsəlman əhalisini tərksilah edir. Halbuki, daşnakların daimi hücumlarının müsəlman əhalisinin fiziki mövcudluğunu qəti təhlükə qarşısında qoyduğunu görmək çətin deyil» (9). Beləliklə, Qırmızı Ordunun hissələri münaqişə edən tərəfləri ayırmaq əvəzinə, azərbaycanlıları tərksilah edir və ermənilərə Azərbaycan torpaqlarını tutmağa şərait yaradırdı. Sovet Rusiyasının bu siyasəti məsələnin həllini uzadır və daha da dolaşığa salırdı. Əslində Moskvanı mübahisəli torpaqların Azərbaycana və ya Ermənistana məxsus olması narahat etmirdi. M.Rəsulzadə qeyd etdiyi kimi «Rusiya üçün bir qəzanın ermənidəmi, yoxsa türkdəmi qaldığının ön əhəmiyyəti ola biliyordu!...Yetişir ki, bunlar həpsi Rusiyada olsun və ortadakı ixtilaflar həll edilsin. Bu həlldə qaib edən müsəlman olursa, nə elam!» (10) B.Şahtaxtınskinin ümumiyyətlə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında və eləcə də türklərin Naxçıvan məsələsinin həllində bizə dəstək olmasında mühüm rolu olmuşdur. Belə ki, 13 avqust 1920-ci ildə onun Q.Çiçerinə ğöndərdiyi teleqramında bildirilirdi: «Sovet Rusiyası xalqın tələbinin əksinə olaraq Naxçıvanı daşnaklara verir, halbuki bu yerli müsəlmanların fiziki məhvi təhlükəsini yaradır, necəki daşnak Ermənistanında yüzlərlə müsəlman kəndləri dağıdılmışdı.» (11). 20 sent-

yabr 1920-ci ildəki V.Leninə geniş məruzəsində Şahtaxtınski bir daha vurğulayırdı: «Türkiyə bizə Şərqin azad olunmasında yardım edə bilər. Lakin Naxçıvanın Ermənistana güzəşt edilməsi, türklərin daşnaklar üzərinə hücumlarına olan maneələr və nəhayət Ermənistana gələcəkdə bir sıra Anadolu ərazilərinin vəd olunması, türklərin bizim siyasətə olan inamını itirir» (12). Lakin Moskva öz böyük oyununu davam etdirməkdə idi. Məhz Sovet Rusiyasının Azərbaycanda siyasətini həyata keçirən və onun icraçıları olan Orconikidze, Stasova, Kaminskinin təzyiqləri nəticəsində Ermənistanda sovet hakimiyyəti quruldūqdan bir gün sonra, 30 noyabr 1920-ci ildə Azərbaycan Kommunist Partiyasının Siyası Bürosu özünün bu hadisə ilə bağlı çağrılmış iclasında Naxçıvanın Sovet Ermənistanına verilməsi haqqında qərarı qəbul edir (13). Bu hadisə Naxçıvanda vəziyyəti gərginləşdirir və 5 dekabr 1920-ci ildən etibarən yerli azərbaycanlıların bu akta qarşı kəskin çıxışları başlayır. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Naxçıvana məhz B.Şahtaxtınskini göndərir. Camaatla görüşlər zamanı Naxçıvanın taleyi ilə bağlı suallara çavabında B.Şahtaxtınski açıqcasına demişdi: «Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunlar ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər» (14). Şahtaxtınskinin Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında keçirilən mitinqlərdə əhali Azərbaycanın himayəsində olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasına tərəfdar çıxdığını bildirdi. Beləliliklə, Şahtaxtınski siyasi uzaqgörənliklə, milli dövlətçilik mövqeyindən çıxış edərək, Naxçıvanın Ermənistana verilməsinə etirazını bildirir və Türkiyənin bu məsələdə oynaya biləcəyi rolu önə çəkir. Xalqın etiraz səsi və türk qoşunlarının Naxçıvanda yerləşməsi Sovet Ermənistanının İnqilab komitəsini 28 dekabr 1920-ci ildə bu məsələ ilə bağlı xüsusi bəyanat verməyə məcbur edir. Bəyanatda Ermənistan rəhbərliyi hiyləgərcəsinə öz ərazi iddialarını pərdələmək üçün, Naxçıvanın özünün müqəddəratını təyin etmək hüququnun olmasına razılığını verir (15). Naxçıvanda vəziyyətin mürəkkəbləşməsi və bu məsələnin qarşıdakı Rusiya-Türkiyə danışıqları zamanı çətin müzakirə mövzusu olması, 12 yanvar 1921-ci il AK (b) P MK Siyasi və Təşkilatı bürolarının qərarı ilə məhz B.Şahtaxtınskinin İnqilabı-Hərbi Şuranın mandatı ilə Naxçıvana komissar göndərilməsini vacib etdi (16). Sovet Rusiyası ilə Türkiyə arasında 16 mart 1921-ci ildə Moskvada bağlanan müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi kimi qalmasında Şahtaxtınski böyük rol oynadı. Moskva danışıqlarında Azərbaycan numayəndə heyətini B.Şahtaxtınski təmsil edirdi. Rusiya diplomatiyası Moskva konfransına Azərbaycanı və Ermənistanı qatmaqla onların xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq istəyirdi. Sovet

Rusiyası burada erməni məsələsindən məharətlə istifadə edib Türkiyədən yeni ərazilər güzəştə getməyə nail olmağa çalışırdı. Şahtaxtınskі Azərbaycanla Türkiyə arasında ikitərəfli diplomatik münasibətlərin qurulmasının tərəfdarı idi. Bununla bağlı konfrans ərəfəsində B.Şahtaxtınskinin hazırladığı məruzədə bildirilirdi ki: «Türkiyə ilə danışıqlarda əsas maneə erməni məsələsidir. Türkiyə ilə sıx ittifaq bağlamaq üçün biz bu məsələni muzakirə obyektinə çevirməməliyik» (17). Şahtaxtınski 11 dekabr 1920-ci ildə Qümridən Bakıya M.D.Hüseynovun və S.Orconikidzenin adına vurduğu teleqramda Türkiyə ilə Azərbaycan arasında ikitərəfli müqavilənin bağlanmasını təklif edir və bunun türk xalqının milli-azadlıq hərəkatına mühüm dəstək olduğunu bildirir (18). Konfransın açılışı günü 1921-ci il fevralın 26-da Şahtaxtınski Moskvadan Azərbaycan SSR-in Xarici İşlər komissarı M.D.Hüseynova yazırdı: «Türklər konfransda Azərbaycan nümayəndələrinin iştirak etməsini istəmirlər və bildirirlər ki, onlarla Azərbaycan arasında qətiyyən heç bir mübahisəli məsələ yoxdur. Azərbaycanla müqavilə xüsusi bağlanacaqdır. Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərf etmir» (19). Beləliklə, Şahtaxtınskinin mövqeyi türk numayəndə heyətinin mövqeyi ilə üst-üstə düşürdü. Türkiyə Azərbaycanla münasibətləri müstəqil, üçüncü tərəfin, yəni Sovet Rusiyasının müdaxiləsi olmadan, qurmağa çalışırdı. Moskva konfransında Türkiyənin qəti mövqeyi Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi kimi qalmasında böyük rol oynadı. Zəngəzurun cənub-qərb hissəsinin ermənilər tərəfindən işğalı Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi. Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun Azərbaycanın bu ərazisinin başqa heç bir üçüncü dövlətə verilə bilməməsi, imzalanmış müqavilənin 3 bəndində öz əksini tapmışdır (20). Bu qərar gələcəkdə Ermənistanın Naxçıvanı işğal etməsinin qarşısını aldı və bu ərazinin Azərbaycanın tərkibində qalmasını təmin etdi. Belə bir nəticənin hasil edilməsində danışıqlarda Azərbaycan SSR-in təmsilçisi B.Şahtaxtınskinin də böyük əməyi və xidməti olmuşdur. O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığını nəzərə çatdırmışdı, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da məktuba əlavə etmiş, Cənubi Qafqazda sərhəd məsələlərinə və xüsusi ilə Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Şahtaxtınski ərazi mübahisələrinin həllini Cənubi Qafqaz respublikalarının federasiyasında görürdü. Lakin tarix göstərdi ki, Şahtaxtınski bu yolla Cənubi Qafqaz dövlətlərinin ərazi mübahisələrinin həllinə dərindən inansa da, əslində yanılırdı. Sonralar Sovet Rusiyası məhz bu yolla gedərək 1922-ci ilin dekabrında Zaqafqaziya Sovet respublikalarının federasiyasını yaratdı və beləliklə, üç Cənubi Qafqaz Sovet respublikalarının formal müstəqilliyinə son qoydu (arayışda Ermənistanın iddia etdiyi ərazilərdə əhalinin milli tərkibi belə verilirdi: Qarabağda – 415 min müsəlman və 178 min erməni; Naxçıvan və

Şərur qəzaları tamamilə azərbaycanlılar; Zəngəzurda vaxtilə 123095 müsəlman və 99257 erməni yaşadığı halda, bir nəfər də müsəlman qalmamışdı). Bu sənədin əhəmiyyəti onda idi кi, Şahtaxtınsкi rəsmi dövlət adamı olduğu üçün, onun bölgələrlə bağlı əhalinin milli tərкibi haqqında verdiyi məlumat Azərbaycan höкumətinin rəsmi mövqeyini ifadə edirdi (21). Təsadüfi deyil кi, martın 7-də Leninin dərкənarı ilə müzaкirə üçün Siyasi Büroya göndərilən həmin məкtuba martın 16-da Stalinin, Çiçerinin iştiraкı ilə baxılmış, B.Şahtaxtınsкinin təкlifi də nəzərə alınmaqla Azərbaycan SSR-in himayəsində Naxçıvan Sovet Respubliкasının təşкili barədə qərar qəbul olunmuşdu. Tərəflər arasında müzaкirələrin davam etdiyi bir vaxtda 1920-ci il martın 13-də B.Şahtaxtınsкi Azərbaycanın XİK M.Hüseynova teleqram göndərərəк Naxçıvanın Azərbaycan tərкibində saxlanılmasının və müqaviləyə əsasən heç vaxt onun Ermənistana verilməməsinin razılaşdırıldığını xəbər verirdi (22). Mosкva кonfransının qərarları 1921-ci ildə кeçirilən Qars кonfransında (26 sentyabr - 13 oкtyabr) təsdiqləndi. Şahtaxtınsкi кonfransda çıxış edərəк demişdir: «Azərbaycan Türкiyə ilə Rusiya arasında həlqədir. O bir кörpüdür кi, burada ruslar at oynatmaq istəyir» (23). Konfransın yeкun sənədində Türкiyə və Sovet Rusiyası ilə yanaşı, Sovet Azərbaycanının və Sovet Ermənistanının da imzaları dururdu. Müqavilənin 5 bəndində Naxçıvana dair Mosкva кonfransının qərarı öz təsdiqini tapmışdır (24). Müqaviləni Azərbaycan SSR-i tərəfindən B.Şahtaxtınsкi imzalamışdır. Bu müqavilənin müddətsiz olması və müqavilədə Sovet Ermənistanının imzasının olması əslində bu dövlət tərəfindən Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olmasını etiraf etməsi deməк idi. Buna görə bu gün də bu müqavilənin Azərbaycan üçün böyüк tarixi əhəmiyyəti var.

Beləliкlə, 1920-ci il aprel işğalından sonra Sovet Rusiyası və onun Azərbaycanda olan əlaltıları, erməni-gürcü-rus кommunistləri tərəfindən ölкəmizin ərazi bütövlüyünə yeni qəsd hazırlamışdır. Laкin milli mövqedən çıxış edən və buna etiraz səsini ucaldan N.Nərimanov, B.Şahtaxtınsкi кimi Azərbaycanın dövlət rəhbərlərinin fəalliyəti nəticəsində bu planlar tam həyata кeçməmişdir. Naxçıvan və Dağlıq Qarabağa muxtariyyətin verilməsi Azərbaycanın ərazi bütövlüyünə xələl vursa da, bu torpaqların Sovet Ermənistanına verilməsinin qarşısını aldı.

## ƏDƏBİYYAT


1. SPİHDA f 1.s.74.iş 120.v.43.
2. Yenə orada, f.609 s.1.iş 21.v.102.
3. Yenə orada, f.1.s.1.iş 2 (a) v.22.
4. Yenə orada, v.9.
5. ARDA f.28.s.1.iş.201.v.171-172.
6. SPİHDA f.609.s.1.iş 71.v.14
7. Yenə orada, iş 101 v37
8. Yenə orada, iş 62v.23-24
9. Yenə orada, f.1s.1.iş 2(a) v.1-8

10. M.Ə.Rəsulzadə. «Azərbaycan cümhuriyyəti». B., 1990, səh.73.
11. Yenə orada, f.609.s.1.iş.71.v.14
12. Yenə orada, f.1s.1.iş 2(a) v.1-8
13. Yenə orada, iş 24 v.51
14. S.Sadıxov. «Naxçıvan Muxtar Respublikası tarixindən». B., 1995, səh.44.
15. Yenə orada, səh 46
16. SPİHDA, f.1.s.1.iş.123.v17
17. SPİHDA, f.609s.1.iş.94.v.194
18. Yenə orada, Sürət fondu № 354
19. Yenə orada, f.609 s.1.iş.94.v 2
20. ARDA, f.28.s.1.iş.67.v1
21. SPİHDA, f.1.s.2.iş.24 (a) v 6-9
22. Yenə orada, f.609.s1.iş94.v138
23. Дж.Гулиев. «К истории образований второй республики Азербайджана». Б., 1997, стр.41.
24. ARDA, f.28.s.1.iş.68.v.11.

## БОРЬБА ПОЛНОМОЧНОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОВЕТСКОЙ РОССИИ Б.ШАХТАХТИНСКОГО ЗА ТЕРРИТОРИАЛЬНУЮ ЦЕЛОСТНОСТЬ РЕСПУБЛИКИ

**И.В.НИФТАЛИЕВ**

### РЕЗЮМЕ

Бехбут Шахтахтинский, выдающийся государственный деятель, первый полномочный представитель Азербайджана в Советской России, сыграл важную роль в развитии азербайджано-российских и азербайджано-турецких отношений в начале 20-х годов XX века. Являясь истинным патриотом своего народа, он в условиях большевистского режима последовательно выступал в защиту сохранения территориальной целостности Азербайджана. Твердая позиция Шахтахтинского, выраженная им в телеграммах в Москву, накануне советско-турецкой конференции в марте 1921 г. по вопросу статуса Нахчывана, предотвратила попытки Советской России и Советской Армении отделить её от Азербайджана.